# Sahibkarlığın inkişafı Prezident İlham Əliyevin diqqət mərkəzindədir

## DÖVLƏT BAŞÇISININ ÖZƏL BÖLMƏNİN İNKİŞAFINI TƏMİN EDƏN TAPŞIRIQLAR VERMƏSİ SAHİBKARLARA BÖYÜK STİMUL VERİR



Ölkə iqtisadiyyatının inkişafını təmin edən mühüm faktorlardan biri də sahibkarlığın inkişafıdır ki, bu məsələ daim dövlətin diqqət mərkəzindədir. Eyni zamanda, sahibkarlığın inkişafı özəl sektorun tərəqqisinə əhəmiyyətli töhfələr verir və bu amil öz növbəsində ölkə iqtisadiyyatının dinamik inkişafının davam etməsində mühüm rol oynayır. Dayanıqlı iqtisadi sistemin formalaşmasında və dinamik inkişafında mühüm rola malik olan sahibkarlıq fəaliyyəti təkcə iqtisadi tərəqqiyə təkan verən faktor kimi çıxış etmir, eyni zamanda, əhalinin sosial rifah halının yaxşılaşmasında əhəmiyyətli vasitə rolunu oynayır. Başqa sözlə, Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sair sosialyönümlü problemlərin həlli sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan sahibkarlığın inkişafı üçün hər cür şəraitin mövcud olduğu ölkədir. Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının fonunda sahibkarlar səmərəli fəaliyyət göstərmək imkanı əldə edirlər. Bir məqama xüsusi olaraq toxunmaq gərəkdir ki, ölkəmizdə sahibkarlığın inkişafını təmin edən faktorlar çoxkomponentlidir və sadalananlarla yanaşı, bir sıra faktorlar da sahibkarlığın inkişafında yardımçı vasitələr qismində çıxış edir. Bunlarla yanaşı, ayrı-ayrı sektorlarda təxirəsalınmaz effektiv tədbirlər planının hazırlanması və icra mexanizmlərinin formalaşdırılması, həmçinin qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi sahibkarlığın inkişafında mühüm əhəmiyyət kəsb edir. Məhz bütün bunların qanunauyğun nəticəsi kimi, bu gün Azərbaycanda sahibkarlıq inkişaf dinamikasına malikdir və özəl sektor öz məhsulları ilə daxili bazarı təmin edir, eyni zamanda, bu məhsulların ixrac potensialı da ilbəil artır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə sahibkarlığın inkişafına zəmin yaradan ən mühüm faktorlardan biri də bu sahədə qanunvericilik bazasının və təkmil hüquqi mexanizmlərin mövcud olmasıdır. Belə ki, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi özəl sektorun struktur elementi olan sahibkarlığın inkişafına hüquqi dəstəyin mövcud olmasını göstərməkdədir.

Lakin bütün bunlarla yanaşı, indiyə qədər bəzi neqativ hal və tendensiyalar sahibkarlığın inkişafına mane olan süni əngəl kimi çıxış edirdi. Bu sırada bir sıra məmurların fəaliyyəti, mövcud prosedurlar bəzi hallarda sahibkarlığın inkişafına mane olan hallara çevrilirdi. Bu, həm yerlərdə sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəliliyinin aşağı salınmasına, həm də ölkənin ümumi iqtisadi inkişafına təsir edən neqativ amillərin, necə deyərlər, "meydan sulamasına" şərait yaradırdı. Heç şübhəsiz, bütün bunlar dövlətin sahibkarlığın inkişafına yüksək səviyyəli diqqət və qayğısına kölgə salırdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində sahibkarlıq sahəsində yoxlamalardan çoxsaylı şikayətlərin daxil olmasını, yoxlamaların sayının, eləcə də lisenziyaların sayının həddindən artıq çox olmasını, göstərilən sahədə sui-istifadə hallarına yol verildiyini, belə halların qarşısının alınacağını, nəticə çıxarmayanların cəzalandırılacağını bildirmişdi.

Məhz Nazirlər Kabinetinin sözügedən iclasından dərhal sonra bütün bu neqativ halların qarşısını almaq istiqamətində atılan addımlar sırasında Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2015-ci il tarixli "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərmanı xüsusi qeyd etmək olar.

Fərmanda deyilir ki, sahibkarlıq fəaliyyətinin inkişafı Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Lakin sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının çoxluğu, xüsusi razılıq (lisenziya) verilməsinin mövcud prosedurları sahibkarlığın inkişafına əlavə çətinliklər və korrupsiya hallarına şərait yaratmışdır.

Dövlətimizin başçısının Fərmanında bildirilir ki, Azərbaycan Respublikası ərazisində sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin təmin edilməsi, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi məqsədi ilə sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan bütün növləri üzrə (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilsin. Eyni zamanda, sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən zəruri hesab edildikdə xüsusi razılıq (lisenziya) verilməsi ilə əlaqədar aidiyyəti dövlət orqanlarının rəyinin alınması, müəyyən edilmiş müddətdə aidiyyəti dövlət orqanı tərəfindən rəy bildirilmədikdə müsbət rəyin verilmiş hesab edilməsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən xüsusi razılıq (lisenziya) verilməsi xidmətinin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsi öz əksini tapıb.

Həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayının minimuma endirilməsi, dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının müəyyən edilməsi, bu Fərmanın müddəaları nəzərə alınmaqla sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya) verilməsi qaydasının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi məqsədilə təkmilləşdirilməsi tapşırılıb.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin elektron qaydada verilməsini təmin edən "Elektron lisenziya" portalının yaradılması istiqamətində işləri sürətləndirməsi tapşırılıb.

Bundan əlavə, 2015-ci il oktyabrın 19-da Prezident cənab İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib. Qanun layihəsinə əsasən, 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır.

Göründüyü kimi, bütün addımların sahibkarlığın, bütövlükdə isə milli iqtisadiyyatımızın tərəqqisinə əhəmiyyətli töhfələr verəcəyini demək olar. Nəticə etibarilə sahibkarlığın inkişafının ölkə başçısı cənab İlham Əliyevin diqqət mərkəzində olması bir daha sübutunu tapmış oldu. İndiyə qədər Azərbaycan dövləti sahibkarlığın, xüsusən də, bölgələrdə orta və kiçik sahibkarlığın inkişafına maddi və mənəvi dəstək göstərməklə siyasi iradə nümayiş etdirirdi və bu proses davam edir. Lakin sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, prosedurların sadələşdirilməsi və şəffaflığının təmin edilməsi, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi iqtisadiyyatın dinamik inkişaf tempinin mütəmadi xarakter daşımasını şərtləndirəcək. Prezident İlham Əliyevin çıxışlarında mütəmadi olaraq sahibkarların fəaliyyətinə verdiyi önəmi vurğulaması, onların problemlərini dilə gətirməsi və sahibkarlığın inkişafı üçün lazım olan tapşırıqlar verməsi sahibkarlara böyük stimul verir. Bu isə nəticə etibarilə sahibkarlığın inkişafına yeni təkan və töhfədir.

**Ceyhun Piriyev,**
***"İki sahil"***